# II Şuşa Qlobal Media Forumunda panel müzakirələr






**“Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda təşkil olunan II Şuşa Qlobal Media Forumu çərçivəsində iyulun 21-də “Təsirin qiymətləndirilməsi: Dezinformasiyanın əhatə dairəsini müəyyənləşdirmək” adlı birinci panel sessiya keçirilib.**

Forumun ikinci gününün birinci sessiyasından əvvəl Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış edərək dezinformasiyanın cəmiyyətdə yeni olmadığına toxunaraq deyib: “Dezinformasiya yeni fenomen deyil. İnformasiya çox güclü vasitədir. Lakin onun necə istifadə edildiyi böyük sual altındadır. Ən təhlükəlisi isə odur ki, dezinformasiya manipulyasiyaya və Azərbaycan xalqına qarşı psixoloji müharibəyə çevrilib”.

H.Hacıyev qeyd edib ki, dezinformasiya müəyyən qrupların məqsədlərinə çatmasında vasitə ola, müharibələrə gətirib çıxara bilər. Dezinformasiyanın əsas qurbanları media və jurnalistlərdir.

Azərbaycanın uzun illər işğala məruz qaldığını, lakin xarici medianın onu başqa tərəfdən göstərdiyini forum iştirakçılarının diqqətinə çatdıran Prezidentin köməkçisi əlavə edib: “Bəzi xarici media orqanları bildirirdi ki, guya biz Ermənistana qarşı cinayət törətmişik, işğala məruz qalan onlardır. Lakin biz ciddi-cəhdlə təkzib vasitələrini işə salmışdıq. Rəsmi bəyanatlar və mətbuat konfransları vasitəsilə düzgün məlumatı və həqiqəti dünyaya çatdırırdıq. Bizim media bu işdə çox böyük rol oynayıb”.

Azərbaycanın dezinformasiyanın hədəfi olduğunu diqqətə çatdıran Prezidentin köməkçisi əlavə edib: “Biz COP29-la bağlı çox güclü dezinformasiya kampaniyası ilə üzləşmişik. Lakin biz öz işimizə inanırıq və mübarizəmizi davam etdiririk. Biz bununla da qlobal səviyyədə iqlim dəyişikliyi ilə mübarizəyə öz töhfəmizi vermiş oluruq. Gündəliyə əsasən işimizi həyata keçiririk. Biz ədalətli mövqeyimizə ədalətli dəstəyi də görürük”.

Sonra “TRT World” kanalının aparıcısı və baş prodüseri Ghida Faxrinin moderatorluğu ilə “Təsirin qiymətləndirilməsi: Dezinformasiyanın əhatə dairəsini müəyyənləşdirmək” adlı birinci panel sessiya işə başlayıb. Sessiyada ən son yeniliklər nəzərə alınmaqla, dezinformasiya anlayışının təhlili, yeni media mühitində dezinformasiya dinamikalarının, mənbələrinin və növlərinin araşdırılması, müasir informasiya platformaları üzrə dezinformasiyanın yayılma arealının müəyyənləşdirilməsi ilə bağlı müzakirələr aparılıb.

“TRT World” kanalının aparıcısı və müxbiri Jaffar Hasnain deyib: “Bəzi xəbər agentliklərinin yaydıqları məlumata baxanda gördüm ki, Azərbaycanı hədəfə almışdılar. Ölkəni aqressor kimi təqdim edirdilər”.

Rusiyanın TASS informasiya agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusman çıxışında bildirib ki, informasiya müharibələri siyasi rejimdən asılı olmayaraq bütün ölkələrə xas bir fenomendir: “Bu gün çox sayda insan yığcam məlumatları telefon vasitəsilə alır. Lakin bu vəziyyətə hazır olmayan cəmiyyətdə feyk xəbərlər düzgün məlumat kimi qəbul edilir. Ona görə də xəbər agentlikləri təbliğatı işıqlandırmamalıdırlar, onların yeganə silahı həqiqi məlumatı yaymaq olmalıdır”.

Ənənəvi medianın nəhəng qurumların əlində olduğunu deyən Əl-Cəzirə Media İnstitutunun Media təşəbbüsləri meneceri Montaser Marai əlavə edib: “Onlar da bildiyimiz kimi, Şimal yarımkürəsində yerləşir. Bizə hər zaman nəzarət edirlər. Ona görə də media olaraq biz narrativlərin mötəbərliyini sorğulamalıyıq: “Tik-Tok” istisna olmaqla, rəqəmsal platformalara nəhəng təşkilatlar rəhbərlik edir. Onlar məlumat axınına təsir edirlər. Təəssüflər olsun ki, bunu bacarırlar”.

Beynəlxalq Siyasət Araşdırmaları Mərkəzinin Türkiyə üzrə Müşahidə mərkəzinin akademik və elmi direktoru Valeria Giannotta qeyd edib ki, Şuşaya ilk dəfə 2021-ci ildə gəlib: “O zaman şəhər xarabalıq vəziyyətində idi. Mətbuat qurumlarının narrativlərə qarşı mübarizələrinin şahidi oldum”. ABŞ-nin MTP klubunun təsisçisi Çarlz Veley deyib: “Biz - 35 nəfər işğaldan azad olunmuş bütün ərazilərə son üç il ərzində səyahətlər etmişik. Azərbaycan hökumətinə bizə bu imkanı yaratdığı üçün təşəkkür edirəm. Qarabağa ilk dəfə gələndə xarabalıqların şahidi olduq. Budəfəki səfərimizdə inanmadıq ki, qısa müddət ərzində buralar belə inkişaf edə bilər”.

*

**Media Forumu çərçivəsində iyulun 21-də “Texnologiya və dezinformasiya” mövzusunda paralel müzakirələr keçirilib.**

“Neurotime” şirkətinin təsisçisi və direktoru Vüqar Cavadov texnologiyanın və dezinformasiyanın müasir media mühitində necə qarşılıqlı əlaqədə olması, bunun nəticələri barədə təqdimatla çıxış edib.

Vüqar Cavadov vurğulayıb ki, saxta xəbərlər cəmiyyətdə inamı sarsıtmaqla yanaşı, ictimai fikirdə də çaşqınlıq yaradır, fikir ayrılıqlarını dərinləşdirir. Bunun qarşısını almaq üçün media savadlılığının artırılmasının, faktların yoxlanılmasının və tənqidi düşüncənin tətbiq edilməsinin vacibliyi diqqətə çatdırılıb, süni intellekti inkişaf etdirən texnoloji şirkətlərin ziddiyyətli təhlil, yoxlama alətləri və sürətli yayılma üsullarından istifadə etməklə dezinformasiyanın öhdəsindən gəlməyə kömək göstərməli olduqları bildirilib.




Texnologiya mütəxəssisləri, media nümayəndələri və digər maraqlı tərəflərin iştirak etdikləri görüşdə saxta xəbərlər, dezinformasiyanın təsirləri ilə bağlı fikir mübadiləsi aparılıb, media sahəsində mövcud innovativ texnologiyaların inkişaf perspektivlərindən danışılıb.

*

**Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda təşkil olunan II Şuşa Qlobal Media Forumu iyulun 22-də işini panel sessiyalarla davam etdirib.**

“Süni intellektin reallığa, mediaya və dezinformasiyaya təsiri: Media savadlılığının təşviqi” adlı sessiya “Haber Global”ın aparıcısı Saynur Tezelin moderatorluğu ilə keçirilib.

Süni zəka ilə media arasında əlaqənin qurulmasının indiki zamanda çox vacib olduğunu deyən Afrika İttifaqı Komissiyasının informasiya və kommunikasiya direktoru Leslie Richer bildirib ki, süni zəka rəqəmsal məkanda mövcud yanlış məlumatlar doğru kimi təqdim edir: “Biz informasiya çatışmazlığının qurbanı olmuşuq. İnsanlar Afrika haqqında kifayət qədər məlumatlı deyillər. Mövcud xəritələrdə Afrika kiçik bir ərazi kimi göstərilir”.

Texnologiyanın reallığa, mediaya və dezinformasiyaya təsirindən danışan “Pakistan Daily” qəzetinin redaktoru Hamza Azhar Salam isə qeyd edib: “Media sahəsində savadlı istehlakçıların yetişdirilməsinin təşviqi günümüzün prioritetlərindəndir. Lakin dil modeli olan süni zəkadan, məsələn, Pakistan–Azərbaycan münasibətlərində istifadə edə bilmərik. Dil modelləri özləri öz həyatlarını təyin edirlər”.

Süni zəkadan media savadlılığının artırılmasında istifadə edilməsinin önəminə toxunan Hamza Azhar Salam bunun dezinformasiyaya qarşı mübarizədə önəminə, həmçinin rəqəmsal əsrdə dezinformasiyanın yayılmasında süni intellektin yaratdığı problemlərə toxunub, həll yolu kimi istehlakçıların media savadlılığının artırılmasının vacibliyini vurğulayıb.

Digər çıxış edənlər - Hankuk Xarici Tədqiqatlar Universitetinin professoru Gi Woong Jung, ABŞ-nin Qlobal Siyasət İnstitutunun prezidenti Paolo Liebl Fon Şirak texnoloji tərəqqi nəticəsində məlumatın yaradılması və ötürülməsi proseslərindən danışıblar.

Sessiyada texnologiya və media sahələrinin nümayəndələrinin, elm xadimlərinin iştirakı ilə dezinformasiyanın yayılmasında və qarşısının alınmasında rol oynayan texnologiyalar, süni intellektin reallığa, mediaya və dezinformasiyaya təsiri, eyni zamanda, media savadlılığının dezinformasiyaya qarşı mübarizədə önəmi, rəqəmsal əsrdə dezinformasiyanın yaradılmasında və yayılmasında süni intellektin yaratdığı imkanlara qarşı həll yolu kimi istehlakçıların media savadlılığının artırılması, bu istiqamətdə müxtəlif tərəflərin səmərəli əməkdaşlıq modelləri müzakirə edilib.

*

**Forumun sonuncu sessiyası “İqlim hərəkatı və media” mövzusuna həsr olunub**

“RiqaTV24” və “Radio Latvia”nın aparıcısı Ansis Bogustovsun moderatorluğu ilə keçirilən sessiyada çıxış edən COP29-un BMT-nin İqlim dəyişikliyi üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai COP-un özlüyündə təkcə hökumətlərarası danışığı deyil, bütün cəmiyyəti əhatə etdiyi bildirib. O diqqətə çatdırıb ki, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə inklüziv yanaşmanı istəyir.

COP-un böyük proses olduğunu vurğulayan Nigar Arpadarai əlavə edib: “Biz hamını Bakıya dəvət edirik. Çünki hər bir insan iqlim dəyişikliyi ilə mübarizədə töhfə verə bilər. Bakı bu baxımdan uyğun müstəvidir”. N.Arpadarai Azərbaycanın bərpaolunan enerjiyə çox böyük üstünlük verdiyini də vurğulayıb.

Böyük Britaniyanın “Methinks” şirkətinin enerji təhlükəsizliyi üzrə mütəxəssisi Con Roberts Azərbaycanın neft-qaz istehsalçısı kimi bir çox xarici media tərəfindən qınaq obyektinə çevrildiyini deyib: “Sanki Azərbaycan ekologiyaya zərər verir. Lakin bir çox ölkələr, ən əsası da ekoloji problemlərdən danışan ölkələr təbiətə zərər verənlərdən biridirlər. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycanın öz qazını Avropaya çatdırmaq üçün gücü var. Lakin kabelləşmə, qazın daşınması xərcləri kimi çətinliklərlə üzləşir”.

“Berliner Zeitung” qəzetinin icraçı direktoru Holger Fridrix, “Arabian Gulf Business Insight” xəbər portalının baş redaktoru Fransis Martin Kane payızda keçiriləcək COP29 çərçivəsində müzakirələrdə ziddiyyətli mövqelər, maraqlar arasında balansın yaradılmasının vacibliyini qeyd ediblər.

Jurnalistlərin ekoloji problemlərlə bağlı mesajlarını çatdırmaları üçün bacarıqlı olmalı olduqlarını diqqətə çatdıran qonaqlar sensasiya, reklam xatirinə xəbər paylaşmağı düzgün hesab etmədiklərini vurğulayıblar. Nəticələr iqlim dəyişikliyinin çox ciddi və məsuliyyətli mövzu olduğunu, jurnalistlərin bu məsələdə daha çox məlumatlı olmalarının vacibliyini söyləyiblər.

Panel sessiyada iqlim hərəkatında medianın rolu, yaşıl dünya naminə səmərəli məlumatlandırma mexanizmlərinin hazırlanması, iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində ictimai gündəmin yaradılmasında medianın əhəmiyyəti kimi mövzularda müzakirələr aparılıb.

**XQ**